**Aytən Abdullayeva**
**dissertant**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**E-mail:** afaqbudaq@yahoo.com

## Lahıc misgərlik sənətində çil camların bədii sənətkarlıq xüsusiyyətləri

**Xülasə:** Məqalədə lahıc misgərliyinin bədii xüsusiyyətləri araşdırılır. Məlumdur ki, Lahıc Azərbaycanın qədim yaradıcılıq mərkəzlərindən biridir. Zərgərlik, misgərlik, dulusçuluq, eləcə də sənət və sənətkarlığın digər sahələri burada qədim zamanlardan bəri inkişaf etmişdir. Lahıc öz nöbbəsində migərlik sənəti ilə də məşhurdur. Məqalədə müəllif bu əsərlərin bədii keyfiyyətini, dekorasiya texnologiyasını ətraflı araşdırmışdır.

**Açar sözlər:** bəzək, element, lampa, şüşə, Lahıc, dekorativ sənət

Dekorativ sənət gündəlik həyatımızda müxtəlif formalı əşyalarda, müxtəlif texnikalarda işlənilib və lazımlı, gözəl olur. Hər bir sənətkar dekorativ sənətdə peşəkardır. Dekorativ sənətin əhəmiyyəti ondadır ki, bir sənətin o biri sənətə təsiri olur. Məsələn, memarlığa, zərgərliyə, toxuculuğa, kitab miniatürünə, və s. müxtəlif təsirlər əsasında sənətə simvolik motivlər daxil olur. Adətən dəmirçilərdən başqa digər sənətkarların adları bilinmirdi. Axır iki, üç əsrdir ki, aparılan araşdırmalar sahəsində müxtəlif müəlliflərin adları aşkar edilir. Dekorativ sənətin mövzusu həndəsi formalardan, flora, faunadan ətrafdan olan bitkilərdən götürülür. Bu mövzular peşəkarın yaratdığı əsərləri bəzəyir. Bəzi əsərlərdə, ornamentlər əsas rol oynayır, bəzilərində isə ikinci rolu - yəni köməkçi. Əlbəttə ki, bəzi ölkələrdə olan ornamentlər dəyişdirilmiş halda başqa ölkələrin, peşəkarları tərəfindən istifadə olunurdu. Əsas təsiri şərq ölkələrinin sənəti göstərir. Bu mövzu diqqətəlayiqdir və ayrıca öyrənilir.

Dekorativ sənətin qiyməti onun olduqca sadə gözəl formada və materialda olmasıdır. Forma o qədər gözəl olurdu ki, ona heç artıq bəzək də lazım olmurdu. Yaradılan əşyaların harmoniyası qeyd etdiyimiz kimi onun materialından, formasından, proporsiyasından asılı olur. Peşəkar vertikal və horizontal cizgiləri düzgün tapdığı zaman yaratdığı əşyaya əlavə bəzək də gərək olmur. Əksinə, eləcə ola bilər ki, forma dekorativ - yəni bəzəkdən asılı olur. Dekordan asılı olaraq əşya öz formasını yəni kompozisiyanı dəyişə bilər. Misal olaraq Misirə aparılmış sandıqcanı göstərmək olar. Dekorativ-tətbiqi sənət sahələri arasında misgərliyin özünəməxsus yeri vardır. Azərbaycan ərazisində bu sənətlə çox qədim zamanlardan bəri məşğul olan emalatxanaların, yerli

sənətkar fəaliyyətinin mövcudluğu barədə kifayət qədər faktlar vardır. Hələ mis-daş dövrü kimi dəyərləndirilən eneolit dövründə insanların daha çox daş alətlərdən istifadəsinə baxmayaraq misdən hazırlanmış parç tipli məmulatların olması ilə bağlı tədqiqat araşdırmaları da mövcuddur. Bu insanların mislə ilk tanışlığı hesab edilir. Həmin dövrlərdə Azərbaycanın Xanlar, Daşkəsən, Gədəbəy, Dağlıq Qarabağ bölgələrində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmiş müxtəlif mis məmulatları eneolit dövrünə aid edilmişdir. Həmin məmulatların kiçik hissələri, qırıqları qeyd olunanları əsaslandıran faktlardır.

Qeyd edilən dövrlərdə Azərbaycanda misgərlik sənəti özünün inkişaf xəttini müəyyən etmişdir. Azərbaycan müxtəlif bölgələrin, şəhər və rayonlarında çoxsaylı məişət əşyaları, ev avadanlıqlarının hazırlandığını sübut edən tapıntılar, faktoloji materiallar mövcuddur. Milli məişət xüsusiyyətindən irəli gələrək qazan, tava, sərpuş, sərnic, sini, satıl, aftafa, səhəng, dolça kimi mis qablara hər zaman ehtiyac duyulmuşdur. Bu mənada muzeylərdə çox sayda XVII-XIX əsrlərə aid mis məişət məmulatlarına rast gəlinir. Azərbaycanın olduqca qədim bölgələrindən olan Lahıcda bu günə qədər köklü ənənələrin qorunub saxlandığı misgərlik sənəti yerli ustalar tərəfindən qürurla davam etdirilir. Burada istehsal edilən müxtəlif məmulatlar içərisində əsasən məişət avadanlıqlarının xüsusi əhəmiyyəti vardır ki, onların bədii tərtibatında istifadə edilən bəzəklər, naxış elementləri, fərqli motivlər hələ qədim zamanlardan sakinlərin dekorativ-tətbiqi sənət sahələrinə daxil olaraq digər sahələrdə də müxtəlif formalarda özünü göstərməkdədir. Belə əşyalardan çil camların forma və dekorativliyi xüsusi olaraq diqqəti cəlb edir.

Misgərlikdə azərbaycanlı ustalar öz istedadlarını dolğun formalarla ifadə edə bilmiş və bu ənənəni davam etdirən yeni nəsil tərəfindən də qürurla davam etdirilməkdədir. Bunu təsdiq edən hələ XIX əsrin əvvəllərində belə misgərlik küçələri vardır ki, burada bir neçə emalatxanaların olduğu və sənətkarların fəaliyyət göstərməsi məlumdur. Hətta misgərliklə bir sülalə olaraq məşğul olan ailələr də var idi ki, onlar nəsildən nəsillə keçən bu sənəti hər dəfə öz övladlarına bütün incəciklərinə qədər öyrətməyi özlərinə borc hesab edirdilər. Hazırda İsmayıllı rayonunun ən qədim sənətkarlıq və yaşayış məntəqəsi hesab edilən Lahıcda da belə sənətkarlar öz əvəzsiz fəaliyyətləri ilə zərif, yüksək zövqlü sənət əsəri səviyyəsində dəyərləndiriləcək məmulatlar hazırlayırdılar.

XIX əsrin ortalarında Lahıcda 180-dən çox mis karxanasının fəaliyyət göstərməsi haqqında informasiyalar da mövcuddur. Doğrudur, həmin dövrlərdə Rusiyada iqtisadiyyatın artması ilə bağlı ucuz qiymətə gətirilmiş fabrik malları olan qab-qacaqların artması bu sənətdə bir qədər zəifləmə hiss etdirsə də, sənətkarlığın əvəzolunmaz dəyəri onu məhv olaraq sıradan çıxmasına imkan yaratmamışdır (1, 92). Mis qablara hər zaman böyük ehtiyac duyulmuşdur. Təsərrüfatda ehtiyac duyulan məmulatlar maye qabları, mətbəx qab və

avadanlıqları, süfrə qab və avadanlıqları, ev-məişət əşyaları üzrə təsnif olunur. Bunlardan mətbəx qabları arasında çil-camların özünəməxsus yeri vardır. Artıq öz əhəmiyyətini itirməyə başlamış bu avadanlığın forması, onun funksiyası eyni zamanda qədim ənənələrə dayanaraq öz maddi əhəmiyyətini göstərməkdədir. Bunlardan XIX əsrdə Lahıcda hazırlanmış məmulatların dekorativ tərtibatı da olduqca böyük maraq doğurmaqdadır (2, 4). XIX əsrin sonlarına aid olan cızma üsulu ilə həyata keçirilmiş çil-camın forması ilə yanaşı onun maraq doğuran bədii tərtibatı özünün dolğunluğu ilə diqqəti cəlb edir. Yuvarlaq ləyən formasında olan məmulatın iç qismində mərkəzdən hündür bir forma verilərək onun funksional tərəfini şərtləndirir. Cızma üsulu ilə həll edilmiş dekorativlik isə əsasən xüsusi xəttatlıq formasında həyata keçirilmiş yazı motivləri əsasında əsərin dəyərini artırmışdır. Ərəb hərfləri ilə yazı sisteminin xüsusi xəttatlıq formasında həyata keçirilmiş tərtibat hətta bəzək motivi kimi də dəyərləndirilə bilər. Burada sənətkar haşiyə, əsas hissə olaraq yazıların özüllüyündə bir ornamental kompozisiya yaratmış və onu harmonik şəkildə həyata keçirmişdir. Məmulatın üst yan hissəsində daha incə verilmiş yazılar sanki haşiyə zolağını xatrladır. Burada simmetrik, ifadəli düzülüş bəzək motivi kimi istifadə edilmiş yazıda xüsusi ifadəlilik meydana gətirmişdir. Ondan bir qədər aşağı, iç qismə tərəf olan hissədə yenə də ensiz zolaq kimi əhatələnmiş yazı forması oxşar xarakterik stildən istifadə edilərək həyata keçirilmişdir. Daxilin yan divarlarında isə verilmiş yazıların yaratdığı harmonik bədii tərtibat daha iri planda verilərək burada kompleksli bəzək motivini meydana çıxarmışdır.

Yazılardan bəzək motivi kimi istifadə edildiyini XIX əsrə aid edilən cızma üsulu ilə həyata keçirilmiş, hündürlüyü 5,5 sm, diametri isə 19 sm ölçüsündə olan digər bir nümunədə görürük (3, 8). Misin parlaqlığı onun üzərinə həkk edilmiş bəzək motivlərinin ifadəli tərtibatını yüksək zövqün ifadəçisi kimi dəyərlədirməyə imkan verir. Qeyd edilən məmulat üzərində naxışlama həm daxili, həm də xarici tərəfdən verilmişdir. Camın yuxarı qismində haşiyə zolağı kimi hissədə zərif xəttatlıq nümunəsi xüsusi sənətkarlıqla həyata keçirilmişdir. Hərflərin sanki axaraq daxili hissəyə doğru ifadə edilməsi onun üst qisimdə olan digər haşiyə zolağını meydana gətirmişdir. Eyni stili məmulatın xarici səthində də görmək mümkündür. Alçaq boylu enliləşən formalı olan nümunə üzərindəki bəzək elementlərinin hər bir hissədə aydın görünməsi üçün əlverişli olduğundan sənətkar bunu nəzərə alaraq incə məqamlarınadək onu diqqətlə tərtib etmişdir. Əsas hissədə verilmiş bəzəklər sanki kitabələr şəkilində verilmiş düz xətli haşiyələrlə əhatələnmiş çərçivələr içərisində ifadə edilən yazıların yaratdığı bəzək motivləri ilə dekorlanmışdır. Burada enli və yuvarlaq hissələr bir-birini ardıcıllıq olaraq əvəz edir (4).

Yenə də XIX əsrə aid edilən digər bir nümunə cam nümunəsi isə daha fərqli formada yaradılmışdır. Onun enli altlığı eyni ölçüdə yuxarıya qədər

davam etdirilərək bir qədər silindrik formada icra edilməsi ilə diqqəti cəlb edir. Hündürlüyü 13 sm, diametri 30,5 sm ölçüsündə olan məmulatın üzərindəki dekorativ tərtibat kompleksli bəzək motivlərini ifadə edərək öz əhəmiyyətini təsdiqləyir. Burada həm təbiətdən alınma, həm də heyvan təsvirlərinin verilməsi ilə yaradılmış dekorativ tərtibatda heç bir bəzək elementinin bir-birinə mane olmasına imkan verilmədən, hər birinin ayrılıqda qavranılaraq yüksək sənətkarlıq zövqünü ifadə etdiyini görürük. Belə ki, dairəvi çərçivələr arasında verilmiş həndəsi elementi şəbəkə formalı motivlər aralıqlara verilərək daha mürəkkəb olan ornament xüsusiyyətlərini həm qabarıq şəkildə, həm də harmonik ifadə tərzində meydana çıxardır. Digər haşiyələrin arasında verilmiş naxışlar isə heyvan motivlərinin qarışıq təsvirləri ilə ifadə edilmişdir.

Eyni dövrdə yaradılmış digər bir nümunədə yazı formasının xüsusi sənətkarlıq xüsusiyyətlərini səciyyələndirdiyinin şahidi oluruq. Hündürlüyü 7 sm, diametri 22 sm ölçüsündə olan çil-camın forması aşağıdan bir qədər dar gələrək yuxarıya doğru tamamilə enliləşən ləyən formasını xatırladır. Onunda daxildə mərkəzində hündür detal verilmişdir. Həmin hissədən başlayaraq xüsusi zolaqlar yaradan yazı nümunəsi bir neçə sırada fərqli enlilikdə sıralanaraq harmonik ifadəni meydana gətirmişdir. Mərkəzdən əhatələnən hissədə daha enli zolaqdan sonra gələn iki ensiz cərgə üst hissədə kitabə formalı detalın arasına yerləşdirilmiş yazıların olduğu daha enli sahənin qabarıq görünməsinə imkan yaratsa da, digər haşiyə zolaqlarının da gözdən itməsinə imkan verilməyən dekorativ tərtibat diqqəti özünə cəlb edir. Burada, bəzək motivlərinin olduğu daha enli qisimdə üç enli hissədən sonra bir yuvarlaq hissənin verilməsi riyazi dəqiqliklə hesablanaraq simmetriya qanunlarının əsaslarını qorumuşdur.

Cızma və döymə üsulu ilə həyata keçirilmiş digər çil-cam nümunəsində onun daxilində olan dik hissənin daha fərqli formada ifadə edildiyini görürük ki, bu da olduqca diqqətçəkəndir. Həmin hissədə açıq formalı digər detalın verilməsi sadə ifadəsi ilə deyil, ətrafında xüsusi sallama detalların verilməsi ilə nəzəri özünə cəlb edir. Hündürlüyü 5 sm, diametri 16 sm olan məmulatın üzərindəki dekorativ tərtibat yenə də xüsusi xəttatlıq sistemində həyata keçirilmiş bəzək motivləri sayəsində özünün ecazkar görünüşünü təqdim edir. Camın yuxarı kənarında verilmiş yazı ifadələri həndəsi üslubu xatırladaraq öz fərqli tərtibatın meydana çıxardır. Daxili hissədə olan geniş sahədə verilmiş digər yazıların vasitəsilə yaradılmış bəzək motivləri də yan-yana sıralanmış tağvari həndəsi formaların daxilində verilərək kompozisiya bütövlüyünü həyata keçirmişdir.

Lahıcda yaradılmış çil-camların dekorativ bədii tərtibatında sənətkarların digər məmulatlarda olduğu kimi müxtəlif, kompleksi bəzək motivlərindən istifadə etdikləri təsdiq olunur. (5). Lakin burada özünü göstərən bir səciyyəvilik var ki, o da əsasən həmin məmulatların forması ilə izah edilir.

**Ədəbiyyat:**

1. Paşayev H. Qədim sənətkarlıq mərkəzi: // Qobustan: Sənət toplusu. 2013. № S. 91-93.
2. Ədilzadə, Ədil. Lahıc misgərlik sənətinin izi ilə... //Ədalət. 2018. 29 iyun. S.4.
3. Əliyev, Z. El sənəti-el şöhrəti // Ədəbiyyat qəzeti. 2015. 13 fevral. S.5.
4. http://www.azpress.az/index.php?sectionid=news&id=904
5. http://unesco.mfa.gov.az/content/88

**Художественные особенности витражного стекла в медном деле Лагича.**

**Резюме**

В статье исследуются художественные особенности Лагичского медного дела. Известно, что Лагич является одним из древних творческих центров Азербайджана. Ювелирные изделия, медное дело, гончарное дело, а также другие области декоративно-прикладного искусства развивались здесь с древних времен. В наше время этот центр творчества больше известен своими изысканными медными изделиями . Одним из таких изделий является витраж, в статье исследуются художественные особенности этих стекол. Автор отмечает, что при создании этих работ мастера всегда принимают форму и содержание в единстве. То есть, помимо красивого внешнего вида изделия, его материал должен быть высокого качества для достижения гармонии. В искусстве медного производства Лагичский витраж является одним из таких изделий. Технология, используемая при ремонте и отделке витражей, подробно рассмотрена в статье.

**Ключевые слова:** медное дело, украшение, элемент, лампа, стекло, Лагич, орнамент

**The artistic mastership of the freckle glasses in Lahij copper working**

**Summary**

The artistic mastership features of Lahij copper working are researched in the article. As it is known Lahij is one of the ancient mastership centers of Azerbaijan. The branches of the decorative-applied art such as jewelry, copper, pottery and others have developed here since the ancient times. In modern times this art center is known for its copper working and the delicate copper products. One of such products is freckle glasses that in the article the art features of these glasses are studied. The author notes that in the creation of these glasses the masters always combined the form and the content. That is, in addition to the beautiful appearance of the product, its material should be of good quality so that harmony is achieved. The freckle glasses in Lahij copper art are such kind of products. In the article the technology used in the formation and decoration of freckle glasses is studied on a wide range of materials.

**Key words:** copper working, decoration, element, lamp, the freckle glasses, Lahij, ornament